## *O, PARLAQ BİR GÜNƏŞ İDİ*

Qəm selinə döndü millət,
Axdı hamı bir ünvana –
O gün xalqım baş əyirdi
Məmləkəti yaradana.

Milliləşib dilim, adım,
Himnim - həyat fəlsəfəsi.
Dar günümdə Moskvadan
Eşidildi onun səsi.

Dərd girdabı içindəydik,
Bu dəryada - bir qaya o.
Qələbə əzmi gətirdi
Naxçıvandan Bakıya o.

Son qoyuldu anaların
Qəlb göynədən göz yaşına –
Döndü o, hər bir insanın
Əbədilik sirdaşına.

O, parlaq bir günəş idi,
Nuru hopub ömrümüzə.
Zirvələri fəth edirik –
Ruhu qida verir bizə.

Nə qədər ki, baxır gözüm,
Döyünür sinəmdə ürək,
Hər işimdə Öndərimin
Öyüdləri görünəcək.

***Valeh Mirzə***
***Azərbaycan dövlətçilyinin qoşa qanadı. – B. : Təhsil, 2006. – S. 332-333.***